Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

22 avqust 2026-cı il №31 (9184) www.muallim.edu.az muallim@media.edu.az


## Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyi qeyd ediləcək



Bax səh.2

## TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN ARASINDA MƏDƏNİ-HUMANİTAR TƏRƏFDAŞLIĞIN APARICI SAHƏLƏRİNDƏN BİRİ KİMİ ÇIXIŞ EDİR



"Biz fəxr edirik ki, qardaş ölkəmizin ən qədim və nüfuzlu ali təhsil müəssisələrindən biri olan Özbəkistan Milli Pedaqoji Universiteti dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyır.

Təhsil sahəsində əməkdaşlıq Azərbaycan ilə Özbəkistan arasında mədəni-humanitar tərəfdaşlığın aparıcı sahələrindən biri kimi çıxış edir. 2025-2026-cı tədris ilində Özbəkistanın 67 vətəndaşı Azərbaycanda, Azərbaycanın 176 vətəndaşı isə Özbəkistanda təhsil alıb. Özbəkistanın təşəbbüsü ilə inşa edilən və Füzuli şəhərində fəaliyyət göstərən Mirzə Uluqbəy adına orta məktəb təhsil sahəsində əməkdaşlığın ən parlaq nümunələrindən biridir və ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin daha bir təzahürüdür. Bu nəcib təşəbbüsə, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə bərpa və tikinti işlərinə göstərilən dəstəyə görə bütün Özbəkistan xalqına və şəxsən Prezident Şavkat Mirziyoyevə səmimi minnətdarlığımızı bildiririk.

Azərbaycanın və Özbəkistanın TDT daxilində siyasi dialoqun, iqtisadi əlaqələrin, nəqliyyat və logistika imkanlarının, təhsil, elm və mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişafına verdikləri töhfə türk dövlətləri arasında inteqrasiyanın daha da dərinləşməsinə xidmət edir."

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsindən (21 avqust 2026-cı il)*

## Vətən tarixi elminin şərəfli inkişaf yolu



105 illik yubileyini yaşayan Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) ölkəmizin təhsil sistemində müstəsna yer tutan, müəllimlərin yetişdirildiyi qocaman ali təhsil ocağıdır. Pedaqoji kadr hazırlığı üzrə ixtisaslaşmış təhsil müəssisəsi olaraq ADPU gənclərin mənəvi potensialının formalaşmasında, milli kadrların hazırlanmasında və milli mədəniyyətimizin inkişafında əvəzsiz xidmətlər göstərən qabaqcıl ali təhsil müəssisələrindəndir.

Bax səh.6

## Gənclər "Yay Fest"də "Elm, Etika və Gələcək" düşərgəsində




Bu il süni intellekt və rəqəmsallaşmaya həsr olunan Yay Fest 2026 çərçivəsində sayca beşinci "Elm, Etika və Gələcək" düşərgəsində gənclər bir araya gəliblər. Düşərgənin əsas məqsədi gənclərin süni intellekt və innovativ texnologiyalar barədə məlumatlılığını artırmaq, onların imkanlarından səmərəli və məsuliyyətli istifadə ilə bağlı maarifləndirmək, gələcəyin əmək bazarının tələblərinə uyğun bacarıqlar formalaşdırmaq və innovativ düşüncə tərzini təşviq etmək olub.

Bax səh.7

## MƏKTƏBƏQƏDƏR TƏHSİL: ƏLÇATANLIQ ARTIR



Uşaqların erkən inkişafı üçün ən vacib elementlərdən biri olan məktəbəqədər təhsil minlərlə ailənin gündəlik həyatı, iş rejimi və büdcəsi üçün həlledici məsələyə çevrilib. Dövlət bağçalarındakı növbələr və özəl müəssisələrin təklif etdiyi qiymətlər arasında seçim etmək məcburiyyəti uşağın təhsilə daha tez qoşulmasının qarşısında ən böyük maneələrdən biri idi.

Bax səh.3

## "MAARİFÇİ"NİN UĞUR HEKAYƏSİ

"İlk müraciətimdə imtahan mərhələsində, ikinci cəhdimdə müsahibədən kəsildim. Hər dəfə uğursuzluq qazandıqca həvəsdən düşmədim. Proqram iştirakçılarını, onların uğurlarını izlədim. İştirakçı olanların hansı keyfiyyətləri var ki, seçilirlər, - deyə müşahidə apardım. Bu istiqamətdə öz üzərimdə çalışdım. "Maarifçi" olmaq mənim üçün böyük hədəflərdən biri idi və bu məqsədimə çatdım"

Bax səh.7



## Dövlət dəstəyi ilə dünyanın ən nüfuzlu universitetlərində oxuyacaqlar

Bax səh.2

## Lənkəran məktəbində təmayül tədris modeli

Bax səh.4

## "Mən təhsili universitetlə başlayan və diplomla bitən proses kimi görmürəm"

Bax səh.5

## Medalçılarımızın uğur yolu

Bax səh.8

# GÖRKƏMLİ DÖVLƏT VƏ ELM XADİMİ ƏZİZ ƏLİYEVİN 130 İLLİYİ QEYD EDİLƏCƏK

## *Prezident İlham Əliyev Sərəncam imzalayıb*



Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyi qeyd ediləcək.

Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncamda deyilir:

"2027-ci ilin yanvar ayında Azərbaycanın görkəmli dövlət və elm xadimi, səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 130 illiyi tamam olur.

Yüksək amallara və humanist ideallara sadiq əsl vətənpərvər ziyalı kimi Əziz Əliyev şərəfli bir ömür yolu keçmiş və gələcək nəsillər üçün xalqa xidmətin parlaq nümunəsini yaratmış nadir şəxsiyyətlərdəndir. O, ən müxtəlif məsul vəzifələrdə çalışarkən milli təəssübkeşlik hissi ilə daim dövlət quruculuğu və idarəçiliyin təkmilləşdirilməsi istiqamətində olduqca səmərəli fəaliyyət göstərmişdir. Azərbaycanda səhiyyə sisteminin yeni əsaslar üzərində qurulmasında, tibb təhsilinin dövrün standartlarına uyğun formalaşdırılmasında və bu sahədə yetkin milli kadrların hazırlanmasında Əziz Əliyevin müstəsna rolu vardır. Əziz Əliyev İkinci Dünya müharibəsi illərində hərbi-siyasi əhəmiyyəti ilə seçilən bir sıra mühüm işlərə böyük uğurla rəhbərlik etmişdir. O, Azərbaycan tarixinin həlledici məqamlarında xalqın taleyüklü məsələlərinə münasibətdə atdığı qətiyyətli addımlarla dövlət idarəçiliyi məktəbini zənginləşdirmişdir. Azərbaycan və Dağıstan arasında münasibətlərin daha da möhkəmləndirilməsi naminə göstərdiyi fədakarlıqlar və verdiyi töhfələr Əziz Əliyevin adını xalqlarımızın dostluq və qardaşlığının həqiqi rəmzinə çevirmişdir".

Sərəncama əsasən, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirməli, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Onlar dövlət dəstəyi ilə dünyanın ən nüfuzlu universitetlərində oxuyacaqlar

Bu il Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almaq hüququ qazanan 500 nəfərdən 155-i dünya reytinq cədvəllərində ilk onluqda yer alan universitetlərdə təhsilini davam etdirəcək. Bu barədə "Azərbaycan müəllimi"nə Dövlət Proqramının İdarəetmə Qrupundan məlumat verilib. Onların arasında Massaçusets Texnologiya İnstitutu, Harvard və Stenford universitetlərinə qəbul olan gənclərimiz də var.



# Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərin ibtidai sinif müəllimləri üçün təlim proqramı hazırlanıb

Azərbaycan və Gürcüstan arasında hökumətlərarası əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyinin əldə etdiyi razılaşmaya əsasən Azərbaycan Respublikasının Təhsil İnstitutu (ARTİ) və Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinin tabeliyində fəaliyyət göstərən LEPL — Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzi (TPDC) Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərin ibtidai sinif müəllimləri üçün birgə təlim proqramı hazırlayıb.

# ETN və tabe qurumlarının işçilərinin “Təhsil” İstirahət Mərkəzinə infoturu olub




**AHİK-in üzv təşkilatı Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının təşkilatçılığı ilə “Təhsil” istirahət mərkəzinə infotur təşkil olunub.**

Xaçmaz rayonunun Nabran qəsəbəsində yerləşən mərkəzə baş tutan infoturda millət vəkili Vüqar İskəndərov, ETİHİ Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Fəttah Fəttayev, Təhsilin İnkişafı Fondunun (TİF) İdarə Heyəti sədrinin müavini Xanım Daşdəmirova, nazirliyin və tabe qurumların digər nümayəndələri iştirak ediblər.

Qonaqlar istirahət mərkəzində təhsil işçiləri üçün yaradılan şəraitlə yaxından tanış olub, mərkəzin infrastrukturu, istirahət və asudə vaxtın səmərəli təşkili üçün təqdim olunan imkanlar barədə ətraflı məlumat alıblar.

Mərkəzdə dincələn elm və təhsil işçiləri ilə görüş zamanı infotur iştirakçıları onların əhval-ruhiyyəsi və istirahət şəraiti ilə maraqlanıb, mərkəzdə yaradılmış şəraitlə bağlı təəssüratlarını dinləyiblər. Həmçinin mərkəzin fəaliyyəti və təhsil işçilərinin istirahət imkanlarının daha da genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Tədbir zamanı ittifaq üzvlərinin təklif və mülahizələri diqqətlə dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# “Maarifçi”lər arasında intellektual oyun keçirilib

**Elm və Təhsil Nazirliyinin təşəbbüsü, Təhsilin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən IV “Maarifçi” tələbə-məzun proqramı çərçivəsində iştirakçılar arasında “Nə? Harada? Nə zaman?” formatında intellektual oyun keçirilib.**



İntellektual oyun “Maarifçi”lərin asudə vaxtının səmərəli təşkili, şəxsi və peşəkar inkişafının dəstəklənməsi, komanda ruhunun gücləndirilməsi və yeni əlaqələrin qurulması məqsədilə təşkil olunub.

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində keçirilən yarışda iştirakçılar 6 komandaya bölünərək bilik və məntiq bacarıqlarını sınayıb. “Murov”, “Aypara”, “Rəşadət”, “İstiqlal”, “Füyuzat” və “Çələbi” adlanan komandalar müxtəlif mövzuları əhatə edən sualları cavablandırıblar.

Rəqabətli mübarizə şəraitində keçən yarış iştirakçıların biliklərini nümayiş etdirməklə yanaşı, komanda işi, çevik düşünmə, məntiqi təhlil və qərarvermə bacarıqlarının inkişafına da töhfə verib.

Yarışın sonunda qalib komanda müəyyənləşdirilib. Qalib komandaya diplom, fərqlənən iştirakçılara isə “Ən yaxşı komanda oyunu göstərən”, “Ən hazırcavab” və “Ən pozitiv” nominasiyaları üzrə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, “Maarifçi” tələbə-məzun proqramının əsas məqsədi gənclərin dövlət idarəçiliyi sahəsində praktiki bilik və bacarıqlarının artırılması, onların peşəkar inkişafının dəstəklənməsi və gələcək karyera imkanlarının genişləndirilməsidir. Proqram çərçivəsində seçilmiş 53 iştirakçı Elm və Təhsil Nazirliyinin struktur bölmələri və tabeli qurumlarında, regional təhsil idarələrində, həmçinin Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində fəaliyyət göstərirlər.

# MƏKTƏBƏQƏDƏRTƏHSİL: ƏLÇATANLIQ ARTIR



## Valideyn-dövlət-özəl tərəfdaşlığı nə vəd edir?

**Uşaqların erkən inkişafı üçün ən vacib elementlərdən biri olan məktəbəqədər təhsil minlərlə ailənin gündəlik həyatı, iş rejimi və büdcəsi üçün həlledici məsələyə çevrilib. Dövlət bağçalarındakı növbələr və özəl müəssisələrin təklif etdiyi qiymətlər arasında seçim etmək məcburiyyəti uşağın təhsilə daha tez qoşulmasının qarşısında ən böyük maneələrdən biri idi. Lakin Nazirlər Kabinetinin 17 iyul 2026-cı il tarixli 218 nömrəli Qərarı ilə təsdiqlənən "Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi Qaydaları" bu mənzərəni kökündən dəyişməyə hesablanıb. Yeni model çərçivəsində dövlətin özəl bağçaların xidmət haqqının 70 faizə qədərini qarşılaması ailə büdcəsinə qənaət edilməsinə, bağçalar arasında sağlam rəqabətin yaranmasına, ən əsası, daha çox uşağın keyfiyyətli təhsilə əlçatanlığının təmin olunmasına gətirib çıxaracaq.**

**Bəs valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan yeni maliyyələşmə modeli praktikada necə işləyəcək və məktəbəqədər təhsilin mənzərəsini necə dəyişəcək?**

### *"Valideyn maddi vəziyyətinin imkanları xaricində olan özəl məktəbəqədər təhsil müəssisələrini də seçə biləcək"*

Təhsil İnstitutunun (ARTİ) böyük elmi məsləhətçisi dosent Laləzar Cəfərova "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib ki, yeni maliyyələşmə modeli son illərdə ölkəmizdə məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi, təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və idarəetmənin təkmilləşdirilməsi istiqamətində aparılan ardıcıl tədbirlərin məntiqi davamıdır: "Bu model dövlət, valideyn və özəl sektor arasında tərəfdaşlığı gücləndirməklə məktəbəqədər təhsilin əlçatanlığının təmin edilməsi və çevik təşkilinə imkan yaradır. Ən mühüm cəhətlərdən biri isə odur ki, dövlət dəstəyi uşağın təhsil hüququnun təmin edilməsinə yönəlir.

Bu modelin ən mühüm üstünlüyü valideynlər üçün məktəbəqədər təhsil müəssisəsələrinin seçim imkanlarının genişlənməsidir. Valideyn yalnız dövlət bağçaları ilə məhdudlaşmayacaq, müəyyən edilmiş tələblərə cavab verən maddi vəziyyətinin imkanları xaricində olan özəl məktəbəqədər təhsil müəssisələrini də seçə biləcək.

Digər mühüm üstünlük rəqabət mühitinin formalaşmasıdır. Rəqabət istər-istəməz xidmət keyfiyyətinin yüksəlməsinə, yeni proqramların tətbiqinə və uşaqlar üçün daha əlverişli inkişaf mühitinin yaradılmasına şərait yaradır".

Mütəxəssis yeni modelin beynəlxalq təcrübədə də geniş yer aldığına diqqəti çəkərək qeyd edib ki, valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modeli beynəlxalq təcrübəyə tamamilə uyğundur. OECD, UNESCO və Avropa İttifaqı ölkələrinin təcrübəsi göstərir ki, erkən uşaqlıq təhsilində dövlət və özəl sektorun əməkdaşlığı təhsilin əhatəliliyinin artırılmasının ən səmərəli yollarından biridir. Bir çox ölkələrdə dövlət uşağın təhsilini maliyyələşdirir, valideyn isə akkreditə olunmuş təhsil müəssisəsini sərbəst seçə bilir.

L.Cəfərovanın sözlərinə görə, maliyyələşmə mexanizminin dəyişməsi keyfiyyət üçün əlverişli şərait yaradır, lakin keyfiyyət yalnız maliyyə hesabına təmin olunmur. Burada üç əsas istiqamət xüsusi əhəmiyyət daşıyır: "Tərbiyəçi-müəllimlərin peşəkar inkişafı, müasir kurikulumun keyfiyyətli tətbiqi, davamlı monitorinq və qiymətləndirmə sistemi maliyyələşmə modeli ilə paralel inkişaf etdirilərsə, məktəbəqədər təhsildə keyfiyyət baxımından ciddi irəliləyiş əldə etmək mümkündür.

Hazırda bir çox ölkələrdə olduğu kimi, əsas problemlərdən biri məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsidir. Bütün ehtiyacın qarşılanmasında özəl sektorun potensialından istifadə edilir. Azərbaycan üçün də bu model xüsusilə böyük şəhərlərdə və yeni yaşayış massivlərində, həmçinin regionlarda əlavə yerlərin yaradılmasına, uşaqların məktəbəqədər təhsilə daha erkən cəlb edilməsinə müsbət təsir göstərə bilər".

### "Bu model özəl sektorun inkişafını stimullaşdıracaq"

Təbii ki, bu prosesdə diqqət yetirilməsi ən vacib olan məsələ layihəyə qoşulmaq istəyən özəl məktəbəqədər təhsil müəssisələrinin keyfiyyəti məsələsidir. Layihəyə yalnız müəyyən tələbləri ödəyən müəssisələr qoşula biləcəyi üçün yeni model özəl sektora yeni imkanlarla yanaşı, məsuliyyətlər də yaradacaq. L.Cəfərova qeyd edib ki, özəl müəssisələr dövlət tərəfindən müəyyən edilmiş keyfiyyət standartlarına riayət etməyə daha çox maraq göstərəcəklər: "Bu model özəl sektorun inkişafını stimullaşdıracaq. Dövlət sifarişlərinin formalaşması özəl bağçaların maliyyə dayanıqlığını artıracaq, yeni investisiyaları təşviq edəcək və regionlarda da yeni məktəbəqədər təhsil müəssisələrinin yaradılmasına marağı gücləndirəcək.

Bununla yanaşı, yeni maliyyələşmə modeli özəl məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinə keyfiyyət baxımından daha yüksək tələblər irəli sürür. Hesab edirəm ki, dövlət sifarişini icra etmək istəyən özəl müəssisələr, ilk növbədə, öz fəaliyyətlərini milli təhsil standartlarına və müasir pedaqoji yanaşmalara uyğun qurmalıdırlar. Əvvəla, təhsilin keyfiyyəti əsas meyar olmalıdır. İkinci mühüm istiqamət peşəkar insan resurslarıdır. Özəl müəssisələr yalnız müvafiq ixtisasa malik tərbiyəçi-müəllimlərlə işləməklə kifayətlənməməli, onların davamlı peşəkar inkişafını, yeni pedaqoji texnologiyalar və rəqəmsal bacarıqlar üzrə təlimlərini dəstəkləməlidir. Bundan əlavə, təhlükəsiz və sağlam təhsil mühiti, sanitar-gigiyenik normalara əməl olunması, uşaqların sağlamlığının və təhlükəsizliyinin qorunması, qidalanma və psixoloji rifah məsələləri də dövlət sifarişinin icrasında mühüm qiymətləndirmə meyarları sırasında olmalıdır.

Hesab edirəm ki, yeni model özəl sektor üçün mühüm inkişaf imkanları açır. Dövlət sifarişinin icrasında iştirak etməklə özəl müəssisələr daha sabit maliyyə imkanları əldə edə, fəaliyyətlərini genişləndirə, yeni filiallar yarada və daha çox ailəni keyfiyyətli məktəbəqədər təhsil xidmətləri ilə əhatə edə bilərlər. Eyni zamanda bu model sağlam rəqabət mühiti formalaşdıracaq ki, bu da xidmət keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərəcək. Lakin bu imkanlarla yanaşı, məsuliyyət də artır. Dövlət dəstəyi alan hər bir özəl müəssisə ictimai etimadı doğrultmalı, maliyyə və idarəetmədə şəffaflığı təmin etməli, keyfiyyət standartlarına ciddi əməl etməli və fəaliyyətinə görə mütəmadi monitorinq və qiymətləndirməyə açıq olmalıdır".

### "Bu tərəfdaşlıq məktəbəqədər təhsilin əhatə dairəsinin genişlənməsinə xidmət edəcək"

Mütəxəssis qeyd edib ki, uzunmüddətli perspektivdə bu model təhsil sistemində bir sıra mühüm keyfiyyət dəyişikliklərinə səbəb ola bilər: "İlk növbədə, bu tərəfdaşlıq məktəbəqədər təhsilin əhatə dairəsinin genişlənməsinə xidmət edəcək. Dövlət və özəl sektorun imkanlarının birləşdirilməsi daha çox uşağın keyfiyyətli məktəbəqədər təhsilə cəlb olunmasına şərait yaradacaq. Xüsusilə dövlət bağçalarına tələbatın yüksək olduğu ərazilərdə özəl müəssisələrin prosesə cəlb edilməsi mövcud ehtiyacın daha çevik qarşılanmasına imkan verəcək.

İkinci mühüm dəyişiklik təhsilin keyfiyyətinə yönəlmiş sağlam rəqabət mühitinin formalaşması olacaq. Dövlət sifarişini icra edən müəssisələr keyfiyyət göstəriciləri, pedaqoji nəticələr və valideyn məmnunluğu baxımından öz fəaliyyətlərini davamlı təkmilləşdirməyə çalışacaqlar".

Laləzar Cəfərova sonda qeyd edib ki, məktəbəqədər təhsilin uğuru tərəfdaşlıq mədəniyyətindən asılıdır: "Dövlət strateji istiqaməti müəyyənləşdirir, özəl sektor çeviklik və innovasiya gətirir, valideyn isə bu prosesin fəal iştirakçısına çevrilir. Bu üç tərəfin səmərəli əməkdaşlığı nəticəsində qazanan isə hər zaman uşaq olur".

**Mərziyyə KAZIMZADƏ**







# Lənkəran məktəbində təmayül tədris modeli:

# Şagirdlər razılıq edirlər

**Azərbaycanda həyata keçirilən tam orta təhsil səviyyəsində yeni təmayül tədris modeli orta ümumi təhsil müəssisələrində tədrisin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin maraq və qabiliyyətlərinə uyğun istiqamətləndirilməsi, ali təhsilə hazırlığın məktəb mühitində təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Layihənin pilot olaraq 2 ildir ki, tətbiq olunduğu təhsil müəssisələrindən biri də Lənkəran şəhər Rövşən Bədəlov adına 9 nömrəli tam orta məktəbdir. "Azərbaycan müəllimi" olaraq həmin məktəbdə tətbiq olunan layihə, onun uğurlu nəticələri ilə bağlı mövcud vəziyyətlə tanış olduq. Əldə olunan nailiyyətin arxasında dayanan amillər barədə məktəbin müəllimləri, şagirdləri və valideynləri ilə söhbətləşdik. İlk olaraq öyrəndik ki, 9 nömrəli tam orta ümumtəhsil məktəbin 131 şagirdi arasında buraxılış imtahanlarında orta göstərici 181,3 bal, blok imtahanlarında orta göstərici 203,4 bal, ümumi orta bal isə 384,6 bal təşkil edib. Buraxılış imtahanında 45 nəfər 200 və yuxarı, 7 nəfər isə 250 və yuxarı bal toplayıb. Ən yüksək nəticə 282 bal olub. Blok imtahanlarında isə 25 nəfər 500-dən yuxarı, 3 nəfər 600-dən yuxarı nəticə göstərib. Ən yüksək nəticə 663 bal təşkil edib.**

## "Şagirdlərin artıq əlavə olaraq repetitor yanına getməsinə ehtiyac qalmır"

Ümumtəhsil müəssisəsinin tarix müəllimi İlkin Qəniyev yeni modelin məktəbdə təhsilin məzmununu və təşkilini əsaslı şəkildə dəyişdirdiyini söyləyir: "Şagirdlərin artıq əlavə olaraq repetitor yanına getməsinə ehtiyac qalmır.Belə ki, onlar bütün zəruri bilikləri məktəbdə mənimsəyirlər. Layihə tədris prosesini dağınıq olmaqdan çıxararaq tamamilə hədəfyönümlü və strukturlaşdırılmış bir müstəviyə keçirib.Şagirdlərin təhsilə yanaşmasında ciddi bir dönüş baş verib. Onlar dərslərə məcburiyyətdən deyil, dərk edilmiş şəkildə yanaşırlar. Müəllim-şagird münasibətlərində birtərəfli izahat arxa plana keçərək yerini qarşılıqlı müzakirəyə və tənqidi təfəkkürə əsaslanan sağlam dialoqa verib".

Müəllimin sözlərinə görə, təmayül fənlərinə ayrılan dərs saatlarının çoxluğu şagirdlərin mövzuları daha dərindən mənimsəməsinə imkan verir: "Təmayül fənlərinə ayrılan dərslərin saatlarının çoxluğu şagirdlərə mövzuları səthi deyil, çox ətraflı, dərindən və tələsik olmadan öyrənməyə geniş imkan yaradır. Artıq şagirdlər məktəbdəki genişləndirilmiş dərslər sayəsində imtahanlara və gələcək ixtisaslarına məktəbdaxili resurslarla tam şəkildə hazırlaşırlar. Təmayülləşmə şagirdlərə öz gələcək peşə istiqamətlərini hələ məktəb illərindən müəyyənləşdirməyə imkan verir ki, bu da dərslərə marağı təbii olaraq artırır".

İlkin Qəniyev hesab edir ki, əldə olunan uğurların əsas səbəblərindən biri də məktəbdə vahid məqsəd uğrunda formalaşan əməkdaşlıq mühitidir: "Məktəb rəhbərliyinin həyata keçirdiyi çevik tədbirlər və pedaqoji kollektivin vahid məqsəd uğrunda çalışması uğurun təməlini qoyub. Şagirdlərin bilik səviyyəsinin vaxtlı-vaxtında qiymətləndirilməsi və zəif tərəflərin operativ şəkildə doldurulması nəticələrə birbaşa müsbət təsir göstərir".

## "Tədris daha sistemli və məqsədyönlü qurulub"



Məktəbin ingilis dili müəllimi Aygün Ələkbərova da layihənin tədris prosesinə təsirini yüksək qiymətləndirir: "Yeni təmayül tədris modelinin tətbiqindən sonra şagirdlərin təmayül fənlərinə marağının və dərslərə motivasiyasının artdığını müşahidə edirik. Tədris daha sistemli və məqsədyönlü qurulub, şagirdlərin fərdi ehtiyaclarına uyğun dəstək göstərilir. Eyni zamanda, onların özünəinamı və müstəqil çalışma bacarıqları inkişaf edir. Ən vacibi isə şagirdlər əlavə hazırlıq kurslarına getmədən məktəb mühitində universitetə daha sistemli hazırlaşmaq imkanı əldə edirlər". Müəllimin fikrincə, təmayülləşmiş təhsil modeli şagirdləri əlavə yüklənmədən qoruyur: "Yeni model şagirdin əlavə fənlərlə yüklənərək yorulmasının və vaxt itkisinə məruz qalmasının qarşısını alır. Şagird seçdiyi istiqamətə, yəni təmayülə uyğun fənləri daha dərindən öyrənmək imkanı əldə edir. Eyni zamanda, məktəb daxilində fənn müəllimlərinin qarşılıqlı əməkdaşlığı şagirdlərin motivasiyasına və davamlı inkişafına müsbət təsir göstərir. Bu yanaşma onların təhsil prosesinə daha məqsədyönlü və məsuliyyətli yanaşmasına imkan yaradır".

## "Burada təhsil almaq mənim üçün fərqli idi"



Buraxılış imtahanında 282 bal toplayan Leyla Ağazadə bu məktəbdə təhsil almağın onun üçün adi məktəbdən əhəmiyyətli dərəcədə fərqləndiyini deyir. Hüquq fakültəsinə qəbul olmağı qarşısına məqsəd qoyan yeniyetmənin fikrincə, məktəbdə dərslərin müntəzəm təşkili və nəticələrin daim izlənilməsi şagirdləri daha məsuliyyətli olmağa sövq edir: "Burada təhsil almaq mənim üçün digər ənənəvi məktəbdən kifayət qədər fərqli idi. Dərslərin hər gün mütəmadi keçirilməsi, müntəzəm sınaqların aparılması, nəticələrin müzakirə olunması və valideynlərlə daim kommunikasiyanın qurulması əsas fərqlərdən idi. Məktəb bizi yalnız yüksək nəticə göstərməyə deyil, eyni zamanda öz xüsusi bacarıqlarımızı ortaya çıxarmağa da yönləndiridi". Leyla hesab edir ki, təmayül sinifdə əldə etdiyi biliklər, qazandığı təcrübə onun gələcəklə bağlı daha böyük hədəflər müəyyənləşdirməsinə də təsir edib: "Burada təhsil almağım yüksək nəticə əldə etməklə yanaşı, ixtisas seçimində daha prestijli universitetlərə yönəlməyimə kömək etdi.Müəllimlərimizin mənə olan inamı gələcəyimlə bağlı daha böyük hədəflər qoymağıma səbəb oldu". Onun üçün dərslərdə ən effektiv öyrənmə üsullarından biri sual-cavab və testlərlə işləmək olub. Leyla çoxsaylı tapşırıqların mövzuları daha yaxşı mənimsəməsinə və imtahan formatına uyğunlaşmasına kömək etdiyini bildirir.

## "Sevdiyimiz ixtisasa uyğun fənləri öyrənirik"



Buraxılış imtahanında 275 bal toplayan Firuzə Həsənova da bu məktəbdə təhsil almağın mühüm üstünlüklər yaratdığını bildirir. Onun sözlərinə görə, yeni təmayül tədris modelinin şagirdlərin seçdikləri istiqamət üzrə daha məqsədyönlü hazırlaşmasına imkan verir:"Ənənəvi məktəblərdən fərqli olaraq yeni təmayül tədris modelinin tətbiq olunduğu bu ümumi təhsil müəssisəsində yalnız öz seçdiyimiz ixtisasa uyğun fənlərini öyrənirik. Şagirdlərin qruplarına uyğun olaraq təmayül siniflərə ayrılması dərslərin daha məqsədyönlü keçirilməsinə kömək edir". Firuzə qeyd edir ki, bu model onun öz potensialını daha yaxşı tanımasına və gələcək ixtisas seçimini dəqiqləşdirməsinə kömək edib.O, müəllimlərin fərdi yanaşmasını da xüsusi vurğulayır: "Müəllimlər təkrar mövzulara qayıdır, çətinlik çəkdiyim hissələri yenidən izah edərək əlavə tapşırıqlar verirdilər. Səhvlərimi müəyyən edib, onların üzərində işləməyimə kömək edirdilər. Ev tapşırıqları ciddi şəkildə yoxlanılır, tez-tez sınaqlar təşkil edilir və mütəmadi valideynlərlə əlaqə saxlanılırdı".

**Nilufər HACILI,**
**Lənkəran-Astara üzrə regional təmsilçi**

**Təhsil haqqında dövlət sənədlərinin verilməsi prosesi tam şəkildə rəqəmsal mühitə keçirilir. Artıq təhsil haqqında dövlət sənədləri "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) üzərindən elektron formatda formalaşdırılacaq. Təhsil sənədlərindəki məlumatlar Elektron Hökumət İnformasiya Sistemi (EHİS) vasitəsilə təhlükəsiz şəkildə təqdim və əldə ediləcək. Bütün təhsil pillələri üzrə sənədlərə ştrix-kod əlavə olunaraq onların həqiqiliyi operativ və onlayn qaydada yoxlanılacaq. Məzunlar sənədlərini elektron kabinetlərindən istənilən vaxt əldə edə, elektron qaydada paylaşa və zərurət olduqda çap edə biləcəklər. Təhsil sənədlərinin dublikatlarının verilməsi, ləğvi və yenidən tərtibi vahid, şəffaf və tam rəqəmsal prosedurlar əsasında həyata keçiriləcək.**



# ATTESTAT ALMAĞIN YENİ QAYDASI NƏYİ DƏYİŞİR?

## "Bu, gənclər üçün çox böyük imkandır"



Bakı məktəbindən bu il məzun olan Mehriban Əsgərova şanslı məzunlardandır. O, 238 nömrəli tam orta məktəbdən bu il məzun oldu:

"Bu il buraxılış imtahanından 252.9 bal, qəbul imtahanından isə 386 bal toplayaraq məktəbimizin 600-dən yuxarı bal toplayan 6 məzunundan biri oldum. 638.9 balla kompüter elmləri və ya informasiya texnologiyaları istiqamətində ən yaxşı təhsil verən universitetlərimizdən birini seçəcəyəm. Üzərində dayandığım ali təhsil müəssisələrindən biri Türkiyə-Azərbaycan Universitetidir. ODTÜ Universiteti ilə ikili diplom proqramı, istədiyim kimi, kompüter mühəndisliyi ixtisası üzrə tədris bu universitetin mənim üçün üstünlüklərindəndir. Burada təhsil almaq istəməyimə səbəb olan başqa bir sıra imkanlar da var ki, düşünürəm ki, onlardan istifadə zamanı attestatım mənə üstünlük qazandıra bilər. Odur ki, təhsil sənədlərinin elektronlaşdırılması vaxtında reallaşdı və mənim kimi başqa ölkələrin ali təhsil müəssisələri ilə birgə həyata keçirilən layihələrə qoşulmaq istəyən gənclər üçün bu, çox böyük imkandır".

Mehriban Əsgərova ümumi orta təhsil pilləsindən məzun olarkən keçdiyi həmin bu çətinlik dolu yolu indi elektron qaydada gerçəkləşdirdiyi prosedurla müqayisə də edib: "Əslində, vaxt baxımından elə bir böyük fərqi olmadı. Ümumi orta təhsil pilləsindən məzun olanda da attestatımız iyul ayının ortasında verildi, tam orta təhsilimizi tamamladığımıza dair təhsil sənədimizin verilməyi də iyul ayının ortasına çəkdi. Amma əlçatanlıq baxımından elektron sənədin üstünlüyü böyükdür. İstədiyimiz zaman attestatımızı orada görə, istənilən şəkildə əldə edə bilərik. Tələb olunduğu halda telefondan göstərə bilər, zəruri hallarda kağız formatda təqdim edərik. Sürətli, rahat və daha praktikdir. Müqayisə edirəm ki, ümumi orta təhsil pilləsini uğurla tamamladıqdan sonra attestatımı məktəbdən təcili götürmək lazım gəldi. Mən Bakıdan uzaqda idim, müəllimlərimiz də məzuniyyət vaxtı olduğundan gözləyə bilmirdilər. Əvvəlcə bəzi tanışlara, qohumlara müraciət etdik, sonra məlum oldu ki, özümün götürməyim şərtdir. Ona görə məcburən Bakıya qayıtdıq. Amma indi attestatım telefonuma gəlib, telefonum, ya da kompüterim qədər əlçatan olub".

## "İstəyirsən elektron qaydada təqdim et, istəyirsən kağızla"



Yeni qaydanın üstünlüklərini köhnə qayda ilə sənəd əldə edənlər daha yaxşı bilər. Sumqayıt şəhəri "İstedad" liseyinin ötənilki məzunu Əli Nəbizadə attestatını almaq zərurəti meydana çıxanda düşdüyü gərgin situasiyanı bu gün belə xatırlayır:

"Ötən il məzun oldum. Attestatımı almaq üçün məktəbə getdim. Özü də həmin gün başqa vacib işlərim vardı. Məcburən hamısını təxirə saldım, çünki məktəbdən bildiriş aldım ki, mütləq deyilən vaxtda gedib təhsil sənədimi götürməliyəm, yoxsa qalacaq".

Azərbaycan Dövlət İqtisad Universitetinin "Kompüter mühəndisliyi" ixtisasının I kursunu əlaçılıqla bitirən uğurlu gənc builki məzunları daha şanslı sayır:

"Kaş yeni qayda ötən ildən tətbiq edilərdi. Bilirsiniz, ötən il təhsil sənədləri kağızla verilirdi və cəmi bir nüsxə əldə edə bilirdik. Onu da ali məktəbə daxil olanda universitetə təqdim etdim. İndi mənə attestat lazım olsa, əldə etmək bir qədər çətin olacaq. Ancaq bu il elə deyil. Elektron təhsil sənədini istədiyin vaxt götürə, istədiyin sayda əldə edə bilirsən. Tələb olunan yerə də istəyirsən elektron qaydada təqdim et, istəyirsən də kağızla. İndi məzunlar üçün bu proses xeyli asanlaşıb. Artıq məktəbin yerləşdiyi şəhərdə yaşamırsansa, sırf sənədini əldə etmək üçün oraya getməyinə ehtiyac yoxdur. Bu, mənə görə, böyük üstünlükdür.

Bundan başqa, əvvəllər attestatın bir nüsxəsi olduğu üçün onu hansısa yerə təqdim edəndə sonradan yenidən lazım ola biləcəyini düşünürdün. İndi isə belə bir narahatlıq yoxdur. Sənəd elektron kabinetdə saxlanılır və lazım olan zaman yenidən əldə etmək mümkündür. Məncə, xüsusilə tələbələr üçün bu, həm vaxta qənaətdir, həm də əlavə stresi aradan qaldırır. Sənədin həqiqiliyinin ştrix-kod vasitəsilə onlayn yoxlanılması prosesi daha etibarlı edir".

## Təhsil haqqında dövlət sənədlərinin verilməsi prosesi tam şəkildə rəqəmsal mühitə keçirilir

Bu əlçatanlığa Nazirlər Kabinetinin "Təhsil haqqında dövlət sənədlərinin elektron formatda verilməsinə dair qaydalar"la bağlı qərarından sonra nail olunub. Təhsil haqqında dövlət sənədlərinin tam elektron formatda verilməsini təmin edən yeni qaydalar təhsil sistemində rəqəmsallaşmanı sürətləndirməyə, sənəd dövriyyəsini müasir elektron idarəetmə prinsipləri əsasında təşkil etməyə və vətəndaşlar üçün xidmətlərin əlçatanlığını əhəmiyyətli dərəcədə artırmağa yönəlib.

Yeni qərara əsasən, ali, orta ixtisas, peşə və ümumi təhsil pillələri üzrə diplomlar, attestatlar, sertifikatlar və onlara əlavələr hüquqi qüvvəyə malik elektron sənədlər kimi formalaşdırılacaq. Bununla da təhsil haqqında dövlət sənədlərinin verilməsi prosesi tam şəkildə rəqəmsal mühitə keçirilir.

Qaydalarda bakalavriat, magistratura və rezidentura səviyyələri, eləcə də orta ixtisas, peşə və ümumi təhsil pillələri üzrə dövlət sənədlərinin məzmunu, verilmə müddətləri, verilməsindən imtina halları və hüquqi nəticələri sistemli şəkildə tənzimlənir.



## "Həm vətəndaşların işi asanlaşacaq, həm də operativlik və şəffaflıq artacaq"

Belə hesab edilir ki, qəbul olunan dəyişikliklər təhsil haqqında dövlət sənədlərinin verilməsində şəffaflığın artırılmasına, inzibati prosedurların sadələşdirilməsinə, vətəndaş məmnunluğunun yüksəldilməsinə və təhsil sistemində rəqəmsal idarəetmənin institusional əsaslarının gücləndirilməsinə xidmət edir.

Təhsil ekspertləri də rəqəmsal keçidi müsbət qiymətləndirirlər.

Təhsil eksperti Elmin Nurinin fikrincə, rəqəmsallaşma ilə ayaqlaşmaq zərurətə çevrilib. Onun qənaətinə görə, sənədlərin texnologiyanın imkanlarına həvalə olunması müsbət addımdır:

"Elektron qaydada təqdim olunan təhsil sənədləri sayəsində bir çox istiqamətlərdə prosesin sadələşdiyini aydın görmək olur. Əvvəlki prosedurları xatırlayaq. Məsələn, universiteti bitirən şəxs diplomunu əldə etmək üçün aylarla gözləməli olur, ya da təhsil aldığını təsdiqləyən arayış almağa məcbur qalırdı. Diplomun hazırlanması və təqdim olunması daha uzun zaman aparırdı.

Elektron təhsil sənədinin verilməsi vacib və zəruri mexanizm olsa da, rəqəmsal dünyanın da öz boşluqları ola bilər. Təhlükəsizliklə bağlı həssas məqamlar var, lakin müasir dövrün tələbləri artıq bu istiqamətdə hərəkət etməyi zəruri edir. Çünki bu addım həm vətəndaşların işini asanlaşdırır, həm də təhsil sistemində operativliyi və şəffaflığı artırır".

**Ruhiyyə DAŞSALAHLI**

# "Mən təhsili universitetlə başlayan və diplomla bitən proses kimi görmürəm"

**Müasir trendlər və qlobal çağırışlar gənclər qarşısında çətin və mürəkkəb suallar qoyur. Gələcək əmək bazarında layiqli yer tutmaq, həyat və karyera imkanlarını dövrün tələbləri ilə çevik surətdə uyğunlaşdırmaq və mürəkkəb vəziyyətlərdə çevik qərarlar qəbul etmək səyləri gənclərdən xüsusi bacarıq və səriştələr tələb edir. Azərbaycan gənci sürətli dəyişikliklərin baş verdiyi və sini intellekt texnologiyalarının getdikcə hakim olduğu dövrdə hansı peşə və ixtisasları seçməli, özünü hansı sahədə tapmalı və hansı səriştə və bacarıqlara sahib olmalıdır? Bu və ya digər suallarımıza cavab almaq üçün bu günlərdə 10 ildən artıq bir vaxt ərzində peşəkar səviyyəli təhsil və tədris imkanları təklif edən "Code Academy"da olduq. Burada tədris və yaradıcı mühit, gənclər, tələbə və məzunlar üçün yaradılan şərait, təşəbbüskar və yenilikçi komanda ilə tanışlıq bizdə zəngin təəssürat yaratdı. Suallarımızı isə "Code Academy"nin qurucusu, təhsil və innovasiya sahibkarı Ülvi Aslanov cavablandırdı.**

## Ülvi Aslanov:



## "Bizim məsuliyyətimiz dəyişimi tez görmək, öyrənmək və onu tədrisə çevirməkdir"

*– Hazırda ölkəmizdə ixtisas seçimi dövrüdür. Bir çox ailənin qarşısında eyni sual dayanır: gələcəyi olan, uzunmüddətli perspektivdə aktuallığını qoruyacaq ixtisası necə seçmək olar?*

– "Gələcəyi olan ixtisas" ifadəsinə bir qədər ehtiyatla yanaşıram. Çünki bu gün heç bir ixtisasa 20-30 illik zəmanət vermək mümkün deyil. Mən seçim zamanı üç şeyə baxardım: insanın həmin sahəyə real marağı və uyğunluğu, sahənin problem həll etmə və başqa istiqamətlərə keçid imkanları, bir də texnologiya dəyişdikcə həmin peşənin necə dəyişəcəyinə.

Artıq texnologiyanın toxunmadığı sahə tapmaq çətindir. Ona görə gəncin sualı yalnız "bu ixtisasın gələcəyi varmı?" olmamalıdır. "Mən bu sahədə öyrənməyə davam edə, texnologiya dəyişdikcə özümü yeniləyə və dəyər yarada bilərəmmi?" sualı daha vacibdir.

*– "Code Academy"ni bu sahədə fəaliyyət göstərən digər təhsil platformalarından fərqləndirən əsas xüsusiyyətlər hansılardır?*

– Fərqimizi ayrı-ayrı üstünlüklərdən çox, qurduğumuz ekosistemdə görürəm. Code Academy 11 ildən artıqdır fəaliyyət göstərir və bu müddətdə 13 mindən çox məzunun inkişaf yolunu müşahidə etmişik. Bu təcrübə bizə göstərib ki, keyfiyyətli təhsil təkcə yaxşı müəllim və yaxşı dərsdən ibarət deyil.

Biz təhsili beş dayağın üzərində qururuq: müəllim, texniki infrastruktur, beynəlxalq standartlara uyğun tədris proqramı, dərsdənkənar praktika və peşəkar şəbəkə. Bunun üzərinə rəsmi beynəlxalq tərəfdaşlıqları, sertifikatlaşma imkanlarını və Zəmanətli Təhsil kimi modelləri əlavə etmişik.

Amma ekosistem dedikdə mənim üçün ən vacib hissələrdən biri məzun şəbəkəsidir. Məzunlarımız bir-birini tövsiyə edir, işə götürür, bilik və imkan paylaşırlar. Bizim üçün Code ilə münasibət məzun günü ilə bitmir. Məqsədimiz Code ailəsinə daxil olan insanın ömür boyu bu ekosistemin bir hissəsi olması və ondan faydalana bilməsidir.

*– Süni intellektin sürətli inkişafı "Code Academy"nin tədris proqramlarına və tədris yanaşmasına necə təsir edir?*

– Məncə, süni intellektlə bağlı ən böyük dəyişiklik proqramlarda yox, təşkilati mədəniyyətdə baş verməlidir. Yeni alət gələndə ondan qorxan yox, onu öyrənən və sonra başqasına öyrədən təşkilat qurmaq lazımdır.

Biz də ilk gündən bunu etməyə çalışdıq. Komandada kimsə yeni aləti və ya yanaşmanı öyrənirdisə, sürətlə digərləri ilə bölüşürdü. Zamanla bu, yeni bilikdən qorxmamaq mədəniyyətinə çevrildi.

Bütün proqramlarımızı yeniləmişik. Süni intellekti ayrıca bir mövzu kimi deyil, araşdırma, analitik düşüncə, problem həlli və nəticəni qiymətləndirmə aləti kimi müxtəlif ixtisaslara daxil etmişik. Tələbəyə sadəcə süni intellektdən cavab almağı öyrətmək kifayət deyil. Əsas bacarıq doğru sualı vermək, alınan cavabı yoxlamaq və ondan daha yaxşı nəticə yaratmaqdır.

Bir təhsil müəssisəsi olaraq gələcəyi dəqiq proqnozlaşdırdığımızı iddia etmirəm. Bizim məsuliyyətimiz dəyişimi tez görmək, öyrənmək və onu tədrisə çevirməkdir.

*– Tədris prosesində praktiki tapşırıqlara və real layihələrə nə dərəcədə yer verilir? Tələbənin real iş mühitinə hazırlanmasını necə təmin edirsiniz?*

– Praktika ilk gündən modelimizin mərkəzindədir. Tələbə nəzəriyyəni tapşırıq, laboratoriya və real layihələr üzərində tətbiq edir. Beynəlxalq tərəfdaşlarımızın onlayn laboratoriyalarından istifadə olunur, tələbələr dərsdən kənar vaxtlarda da kampusdakı birgə iş (coworking) sahələrində işləyə bilirlər.

Bizim daxildə işlətdiyimiz bir ifadə var: özümüzə və sənayeyə gələcək iş yoldaşları yetişdiririk. Ona görə yalnız texniki bilik yox, intizam, davamlı çalışma, komanda ilə işləmək və nəticə ortaya qoymaq vərdişi də vacibdir.

Bir də vacib prinsipimiz var: hamı eyni sürətlə öyrənmir. Bir tələbənin ilk cəhddə istədiyi nəticəni əldə etməməsi onun həmin sahədə uğurlu ola bilməyəcəyi demək deyil. Zəmanətli Təhsil modelimiz də buna görə yaranıb. Tədrisi bitirmiş məzun sonradan mövzunu kifayət qədər yaxşı mənimsəmədiyini düşünürsə, eyni proqramda yenidən ödənişsiz iştirak edə bilir. Məqsəd proqramı sadəcə bitirmək yox, həqiqətən öyrənməkdir.



*– Yerli və beynəlxalq şirkətlərlə hansı istiqamətlərdə əməkdaşlıq edirsiniz və bu tərəfdaşlıqlar tələbələr üçün hansı imkanlar yaradır?*

– Tərəfdaşlığı loqoların və ya şirkətlərin sayı ilə ölçməyi çox doğru hesab etmirəm. Mənim üçün əsas sual budur: bu əməkdaşlıq tələbəyə nə verir?

Beynəlxalq tərəfdaşlıqlar bizə proqramları rəsmi standartlarla uyğunlaşdırmaq, müəllimləri sertifikatlaşdırmaq, laboratoriyalara və peşəkar sertifikatlara çıxış yaratmaq imkanı verir. Tələbələrimiz bəzi beynəlxalq sertifikatlarda tərəfdaşlıqlar hesabına 100 faizə qədər güzəşt də əldə edə bilirlər.

Yerli və beynəlxalq şirkətlərlə əlaqələr isə proqramlarımızın əmək bazarından qopmamasına kömək edir. Sektor mütəxəssislərini tələbə və məzunlarla bir araya gətiririk. Məzunlarımız müxtəlif şirkətlərdə işlədikcə bu əlaqə daha da böyüyür və ekosistem yeni tələbələr üçün də imkan yaradır. Bizim üçün tərəfdaşlığın dəyəri, onun, tələbənin əlində hansı konkret imkana çevrilməsidir.

*– Universitet təhsili ilə intensiv praktiki təlim modelləri bir-birini necə tamamlamalıdır? Sizcə, əmək bazarının tələblərinə cavab verən mütəxəssis hazırlığında optimal model necə qurulmalıdır?*

– Universitetlə intensiv praktiki təhsili bir-birinin rəqibi kimi görmək səhv olar. Universitet çox dəyərlidir, amma artıq insanın peşə həyatına tam hazır olduğu son nöqtə kimi qəbul edilə bilməz.

Universitet insanın akademik təməlini, düşünmə, araşdırma, sual vermə, fikrini ifadə etmə və əməkdaşlıq bacarıqlarını formalaşdırır. Praktiki təhsil isə həmin bilikləri real iş üsulları və layihələr üzərində bacarığa çevirir.

Əmək bazarına yalnız diplomu və ya müəyyən bir alətdən istifadə etməyi bilən insanlar yox, düşünə, istehsal edə və lazım gələndə yenidən öyrənə bilən insanlar lazımdır.

Burada əlçatanlıq da önəmlidir. Əlavə praktiki təhsil yalnız maddi imkanı olanların əldə etdiyi üstünlüyə çevrilməməlidir. Məncə, gələcəkdə Təhsil Tələbə Kredit mexanizmlərinin ömürboyu və əlavə təhsil müəssisələrini də əhatə etməsi kimi modelləri müzakirə etmək faydalı olar.

*– Dövlət-özəl əməkdaşlığı rəqəmsal təhsilin inkişafında hansı imkanları yaradır? "Code Academy" bu əməkdaşlıq modelində hansı rolu oynaya bilər?*

– Məncə, dövlət-özəl əməkdaşlığının ən böyük imkanlarından biri paralel təhsil sistemi yaratmaq yox, praktiki təcrübəsi və beynəlxalq standartları olan yerli təhsil şirkətlərini mövcud təhsil sisteminin içinə gətirməkdir.

Dövlət geniş miqyasda əlçatanlıq və strateji istiqamət yarada bilir. Özəl təhsil müəssisələri isə proqramları daha çevik yeniləyə, beynəlxalq standartları və praktiki təcrübəni daha sürətli tətbiq edə bilir. Bu iki imkan birləşəndə nəticə daha güclü olur.

Biz bunu praktikada da görürük. Elm və Təhsil Nazirliyi ilə həyata keçirilən "Code for Future" layihəsi çərçivəsində 3 mindən çox universitet tələbəsi təhsil alıb. Milli Observatoriya Mərkəzinin məzun məlumatları əsasında elektron hökumət bazalarında apardığı təhlildə layihə məzunlarının 82%-nin məşğul olduğu müəyyənləşib. Bu, bizim öz daxili sorğumuz deyil, dövlət məlumatları üzərindən aparılmış təhlildir.

Bu təcrübəni peşə təhsilinə də gətirmişik. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ilə dörd istiqamət üzrə proqramlar həyata keçirmişik, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə də uzun illərdir müxtəlif layihələr icra edirik.

Məqsəd layihələrin sayını artırmaq deyil. Məqsəd işləyən modeli sistemin içinə gətirmək və daha çox gəncin real bacarıq və karyera imkanına çıxışını artırmaqdır.

*– Süni intellekt alətlərinin artıq kod yaza bildiyi bir dövrdə gənc proqramçılarda texniki biliklərlə yanaşı hansı bacarıqlar daha kritik olacaq ki, onlar süni intellektlə rəqabət aparmaq əvəzinə ondan səmərəli istifadə edə bilsinlər?*

– Məncə, proqramlaşdırmaya həqiqi marağı olan gənclər üçün çox maraqlı dövrdür. Süni intellekt kodun bir hissəsini yaza bildikcə, sadəcə sintaksis bilmək insanı fərqləndirmir. Daha çox hansı problemi həll etdiyin və necə düşündüyün önə çıxır.

Biz proqramçıya sadəcə kod yazan insan kimi baxmamalıyıq. O, proqram mühəndisidir. Sistemi bütöv görməli, problemi hissələrə bölməli, düzgün həll arxitekturası qurmalı, süni intellekt alətlərini və agentlərini idarə etməli, alınan nəticəni tənqidi qiymətləndirməlidir.

Alqoritmik düşüncə, sistemli yanaşma, problem həlli, yaradıcılıq, kommunikasiya və davamlı öyrənmə daha da vacib olacaq. Əsas sual "Süni intellekt mənim yerimi alacaqmı?" yox, "Süni intellektdən istifadə edərək əvvəllər yarada bilmədiyim hansı dəyəri yarada bilərəm?" olmalıdır.

*– Texnologiyalar sürətlə dəyişdiyi halda, təhsil proqramlarının aktuallığını qorumaq üçün hansı mexanizmlər lazımdır? "Ömürboyu təhsil" yanaşması bu prosesdə hansı rolu oynayır?*

– Beynəlxalq sertifikatlar çox vacib mexanizmdir, amma təkbaşına kifayət etmir. Onlar proqramı beynəlxalq standartlarla müqayisə etməyə kömək edir. Bunun yanında sənaye ilə daimi əlaqə, müəllimlərin davamlı inkişafı və proqramların daha tez-tez yenilənməsi lazımdır.

Əvvəllər tədris proqramına bir neçə ildən bir baxmaq mümkün idisə, indi bəzi texnoloji sahələrdə bunu 6 ay, maksimum 1 il intervalında etmək lazım gəlir. Təhsil müəssisəsinin özü öyrənmirsə, tələbəyə ömürboyu öyrənməyi öyrədə bilməz.

Ömürboyu təhsil mənim üçün ayrıca bir kurs və ya sonradan əlavə olunan mərhələ deyil. Mən təhsili universitetlə başlayan və diplomla bitən proses kimi görmürəm. İnsan doğulduğu andan peşə həyatının sonuna qədər öyrənir. Bir dəfə təhsil alıb eyni biliklə bütün karyeranı davam etdirmək artıq mümkün deyil.

Ən vacib bacarıqlardan biri insanın öz biliyini yeniləyə bilməsidir. Ən müasir proqram belə bir neçə ildən sonra köhnələ bilər, amma öyrənməyi öyrənmiş insan özünü yenidən qura bilir.

*– "Code Academy"yə rəhbərlik etmək sizin üçün hansı əsas məsuliyyətləri yaradır? Sizi məhz texnologiya təhsili sahəsində çalışmağa gətirən əsas motivasiya nə olub?*

– Mənim üçün liderlik mövcud sistemi yaxşı idarə etməkdən ibarət deyil. Lazım olan yerdə yeni model qurmaq, onun işlədiyini göstərmək və sonra həmin dəyişikliyin daha geniş miqyasda yayılmasına nail olmaqdır.

"Code Academy" böyüdükcə bu məsuliyyət də böyüyüb. Mentorluq modeli, buraxılış layihələrinin müdafiəsi, Zəmanətli Təhsil kimi bir vaxtlar fərqləndirici hesab etdiyimiz yanaşmaların bu gün sektorda daha geniş tətbiq olunduğunu görürük. Mən bunu rəqabət itkisi kimi yox, yaratdığımız dəyişikliyin miqyası kimi görürəm. Yaxşı bir yanaşma standart halına gəlirsə, sektor bütövlükdə güclənir və bundan ölkə qazanır.

**Mənim motivasiyamın kökündə sadə bir inam var: təhsillə çox şeyi dəyişmək mümkündür. Mənim üçün texnologiya məqsəd deyil, insan üçün daha keyfiyyətli təhsil və daha çox imkan yaratmaq alətidir. Bu gün məzunlarımızın özlərinə uyğun sahədə dəyər yaratması, beynəlxalq bazarda işləməsi və bu dəyərin ölkə iqtisadiyyatına, o cümlədən İKT ixracına çevrilməsi ən böyük motivasiyalarımdandır. Liderlik etdiyim qurumun uğurundan daha vacibi, yaratdığımız modellərin insanların seçim imkanlarını artırmasıdır.**

**Oruc MUSTAFAYEV**

# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ - 105

# VƏTƏN TARİXİ ELMİNİN ŞƏRƏFLİ İNKİŞAF YOLU

**105 illik yubileyini yaşayan Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) ölkəmizin təhsil sistemində müstəsna yer tutan, müəllimlərin yetişdirildiyi qocaman ali təhsil ocağıdır. Pedaqoji kadr hazırlığı üzrə ixtisaslaşmış təhsil müəssisəsi olaraq Pedaqoji Universitet gənclərin mənəvi potensialının formalaşmasında, milli kadrların hazırlanmasında və milli mədəniyyətimizin inkişafında əvəzsiz xidmətlər göstərən qabaqcıl ali təhsil müəssisələrindəndir.**



### Yaranması və ilk illəri

Azərbaycan Dövlət Pedaqoji Universitetinin təməli 1921-ci il avqustun 26-da Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun imzaladığı tarixi dekretlə qoyulmuşdur. Dekretdə deyilir: "Bu ilin sentyabr ayının 1-dən etibarən Bakı şəhərində ikinci dərəcəli məktəblər üçün dövlət dilində (Azərbaycan dilində) müəllimlər hazırlaya biləcək Azərbaycan Pedaqoji Kişi İnstitutu təsis edilsin". Qocaman ali təhsil ocağı ana dilində fəaliyyətə başlayan birinci ali məktəb kimi cəmi 6 nəfər tələbə ilə müəllim hazırlığı sahəsində şərəfli bir missiyanı öz üzərinə götürmüşdür. İlk direktoru Fətulla Rzabəyli olmuş İnstitutda dərslər 1921-ci ilin noyabrından başlanmışdı. İlk günlər İnstitut üç ixtisas: tarix-ədəbiyyat, təbiyyat-coğrafiya və fizika-riyaziyyat üzrə müəllim kadrları hazırlayırdı.

1924-cü ildən başlayaraq Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən görkəmli rus alimləri - İ.Meşşaninov, V.Bartold, N.Marr, A.Samoyloviç, P.Juze və başqaları Ali Pedaqoji İnstitutda mühazirə oxumaq üçün dəvət olunmuşdular.

1925-1926-cı tədris ilində İnstitutda mövcud olan tarix-ədəbiyyat şöbəsi iki müstəqil şöbəyə: ədəbiyyat və tarix şöbəsinə ayrıldı. Tarix şöbəsinin dekanı vəzifəsinə Əziz Ubaydulin təyin edildi. Azərbaycan SSR XKS-nin 1926-cı il 16 iyul tarixli "Ali Pedaqoji İnstitutların yenidən təşkili haqqında" qərarına uyğun olaraq 1926/1927-ci tədris ilinin sonundan Ali Pedaqoji İnstitut V.İ.Lenin adına Azərbaycan Dövlət Universitetinin pedaqoji fakültəsində birləşdirildi.

Pedaqoji İnstitut fəaliyyəti boyu bir neçə dəfə yenidən təşkil olunmuşdur. Respublikada ali təhsilin yenidən qurulmasında və inkişaf etdirilməsində Azərbaycan SSR XKS-nin 1930-cu il 19 iyun tarixli "Azərbaycan SSR ali məktəblərinin və ali texniki məktəblərin yenidən təşkili və rayonlaşdırılması, onların müvafiq təsərrüfat idarələri və Xalq Komissarlıqları tərkibinə verilməsi haqqında" qərarı əsasında respublikada ali məktəblərin daxili quruluşunda əsaslı dəyişikliklər edilərək onlar ixtisas profilləri üzrə ayrıldı. Müvafiq qərara uyğun olaraq universitetin pedaqoji fakültəsinin bazası əsasında Azərbaycan Dövlət Pedaqoji İnstitutu yaradıldı.

1930-cu illərin əvvəllərində universitetin bağlanması ilə Pedaqoji İnstitut müəllim hazırlığı sahəsində öz fəaliyyətini nisbətən genişləndirdi.

Bununla da, 1930-cu ildən Pedaqoji İnstitut öz inkişafının ikinci mərhələsinə daxil oldu.

### Struktur dəyişiklikləri və Azərbaycan tarixi kafedrasının yaradılması

Pedaqoji İnstitutun həyatında Azərbaycan tarixi kafedrasının rolu xüsusilə diqqətəlayiqdir. Çünki keçmiş SSRİ dönəmində milli respublikaların tarixinə, o cümlədən Azərbaycan tarixinə, Vətən tarixinə qoyulmuş siyasi-ideoloji məhdudiyyətlər nəzər-diqqətdən yayınmırdı.

1931-ci il sentyabrın 29-da rektorluğun iclasında 28 kafedra təsdiq edilmişdir ki, bunların sırasında Azərbaycan tarixi kafedrası da mövcud olmuşdur. O zamanlar kafedraya professor Vəli Xuluflu rəhbərlik etmişdir. 1937-1938-ci illərin kütləvi repressiyaları dövründə fakültənin görkəmli tarixçi alimləri professorlar - B.N.Tixomirov, Ə.Ubaydulin, A.S.Bukşpan, V.M.Xuluflu, P.P.Fridolin, dosentlər - M.Bayramov, Ə.Salamzadə, H.Qasımzadə və onlarla başqaları da repressiya qurbanları arasında olmuşlar.

1930-40-cı illərdə kafedranın müəllim heyətində azərbaycanlıların sayı artmışdır. Həsi Abdullayev, İsmayıl Hüseynov, Zülfəli İbrahimov, Əlisöhbət Sumbatzadə kafedrada müəllim kimi fəaliyyətə başlamışdılar.

Elmi kadrların yetişməsi və tədqiqat işlərinin genişlənməsi nəticəsində 1939/1940-cı tədris ilində institutda kafedraların sayı 31-ə çatdırıldı.

### İkinci Dünya müharibəsi dövrü və elm sahəsində ilk uğurlar

1941-ci ildə müharibənin başlanması ilə əlaqədar, ali təhsil sistemində yenidənqurma işləri görüldü. Müharibənin çətin illərində belə, 1941-ci ildə Pedaqoji İnstitutun fəaliyyəti müvəqqəti olaraq Universitetlə birləşdirilsə də, 1943-cü ildə 5 fakültə və 25 kafedra ilə müstəqil fəaliyyətini bərpa etmişdir.

Keçmiş SSRİ-də milli respublikaların tarixinə laqeyd münasibət ucbatından dərs yükləri tədricən azaldılmış və bir müddətdən sonra bəzi kafedralar bağlanmışdır. Azərbaycan tarixi kafedrasının taleyi də bu təqiblərdən yan keçməmişdir. Bununla yanaşı, bu müddətdə tarixçilərimizin bir sıra elmi uğurları da olmuşdur. 1946-1947-ci illərdə Azərbaycan tarixi kafedrasının müdiri İsmayıl Hüseynov, Ümumi tarix kafedrasının müdiri Əlisöhbət Sumbatzadə, Zülfəli İbrahimov Moskva Dövlət Universitetinin Elmi Şurasında doktorluq dissertasiyasını müdafiə edərək, tarix elmləri doktoru alimlik dərəcəsi alan ilk azərbaycanlılar olmuşlar.

1948-ci ildə tələbə qəbulunun azalması ilə əlaqədar olaraq Azərbaycan tarixi kafedrası bağlanır. 1958-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən Pedaqoji İnstitutda Azərbaycan tarixi kafedrasının bərpa edilməsi haqqında qərar qəbul edilsə də, buna imkan verilməmişdir.

1957-ci ildə 5 illik təhsil sisteminə keçidlə əlaqədar olaraq tarix və filologiya fakültələri birləşdirildi. Lakin 5 illik təhsil sistemi müddətində tələbələrin bir neçə ixtisasa yiyələnməsi təcrübəsi tədrisin keyfiyyətinə və kadrların hazırlanması işinə mənfi təsir göstərirdi. Ona görə də, respublika hökumətinin 1963-cü il 11 iyun tarixli "Ali və orta ixtisas təhsilini daha da inkişaf etdirmək, mütəxəssislərin hazırlanmasını və onlardan istifadə edilməsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı ilə ali pedaqoji məktəblərdə tarix ixtisası üzrə ümumtəhsil məktəbləri üçün müəllimlər hazırlanması vəzifəsi irəli sürüldü.

Təhsil müddətinin yenidən 4 ilə endirilməsi ilə əlaqədar olaraq 1963/64-cü dərs ilindən tarix-filologiya fakültəsi iki müstəqil fakültəyə ayrıldı. Bu illərdə kafedranın elmi potensialı artmışdır. Azərbaycan tarixi kafedrasında professor J.Tokarjevski, M.Qazıyev, M.Şərifli, C.İbrahimov, Ş.Məmmədbəyli və başqaları uzun müddət çalışmışlar.

### Milli tarixin dirçəlməsi

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildikdən sonra 1970/1971-ci tədris ilindən Pedaqoji İnstitutda Azərbaycan tarixi kafedrası bərpa edilmişdir. Heydər Əliyevin siyasi rəhbərliyə gəlişi ilə kafedra yenidən təşkil edilmiş və kafedra müdiri vəzifəsinə Əməkdar elm xadimi, professor Nəzər Paşayev (1971-1988) seçilmişdir. N.Paşayev XX əsrin 20-40-cı illərində Azərbaycan mədəniyyəti tarixinin tədqiqi ilə məşğul olmuşdur. Sonra kafedraya Əməkdar elm xadimi, professor Süleyman Məmmədov (1989-2016-cı illər) rəhbərlik etmişdir.

1950-60-cı illərdə kafedrada çalışan və yüksək elmi dərəcə almış tarixçilərimiz özlərini elmə həsr etdilər. Bunlardan Z.İ.İbrahimov Azərbaycan tarixinin aktual problemlərinin tədqiqinə başladı. O,1905-1907-ci illər inqilabı tarixinin tədqiqatçılarından biri olaraq 3 cildlik "Azərbaycan tarixi" (1958-1963), "Zaqafqaziyada sovet hakimiyyətinin qələbəsi" (1958), "Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri"(1964), "Zaqafqaziya Kommunist təşkilatları tarixinin oçerkləri" (1967) və digər əsərlərin müəllifi kimi tarixdə qaldı.

Bu illərdə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü,Tarix İnstitutunun direktoru vəzifəsində çalışmış Əlövsət Quliyevin müəllifi olduğu üç cildlik "Azərbaycan tarixi" (1958-1963) kitabı milli tariximizə dair fundamental əsərdir. O, orta məktəb üçün "Azərbaycan tarixi" dərsliyi (1964), "Qafqaz xalqları" (dünya xalqları seriyasından) (1962), "Rusiya neft sənayesində inhisarçı kapital:1883-1914" (1961), "1910-1914-cü illərdə Azərbaycanda fəhlə hərəkatı" (1967) və digər əsərlərin müəlliflərindən, redaktorlardan və redaksiya heyəti üzvlərindən biri olmuşdur.

Əlisöhbət Sumbatzadə XIX-XX əsrlər Azərbaycanın sosial-iqtisadi tarixinin tədqiqatçısıdır. O, "XIX əsrdə Azərbaycanda kənd təsərrüfatı" (1958) əsəri ilə sübut etdi ki, iqtisadi inkişaf amillərini öyrənmədən tarixi prosesin iqtisadi qanunauyğunluğunu açmaq mümkün deyil. Pedaqoji institutda çalışdığı illərdə kadr hazırlığı işində Ə.Sumbatzadənin böyük xidmətləri olmuşdur. Ə.S.Sumbatzadə "XIX-XX əsr Azərbaycan tarixşünaslığı" (1987), "XIX əsr Azərbaycan sənayesi" (1964), "1837-ci il Quba üsyanı"(1961), "XIX əsrin əvvəllərindən XX əsrin 80-ci illərinə qədər Azərbaycan tarix elminin inkişafı" (1980) kimi milli tarixşünaslıqda dəyərli əsərlərin müəllifidir.

Akademik İsmayıl Hüseynov 3 cildlik Azərbaycan tarixinin (1958-1963) müəllifi və redaktorlarından biri olmuşdur.

Professor Cəfər İbrahimov Azərbaycan Pedaqoji İnstitutunda tarix fakültəsinin dekanı və kafedra müdiri vəzifəsində çalışmışdır, orta əsrlər dövrü tarixinin tədqiqatçılarından biri olmuşdur.

Ömrünün bir hissəsini Pedaqoji İnstitutda gənc nəslin tərbiyəsinə həsr etmiş Həsi Abdullayev eyni zamanda Azərbaycanın son orta əsrlər dövrünün (XVIII əsr) ilk tədqiqatçısı olaraq Azərbaycanın Cənubi Qafqaz xalqları ilə sosial-iqtisadi, siyasi və mədəni əlaqələri tarixini təhlil etmiş, onun obyektiv siyasi əhəmiyyətini açmış, XVIII əsr Azərbaycanın zəngin iqtisadi potensiala (yeraltı sərvətləri, xam ipəyi, quru meyvəsi, zəfəran, qızıl boya, ədviyyat və s.) malik olduğunu konkret arxiv sənədləri əsasında göstərmişdir.

### Müstəqillik dövrü və müasir çağırışlar

Azərbaycanda Dövlət Müstəqilliyinin bərpa edilməsi və Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycan tarixi məsələlərinə xüsusi diqqət yetirildi. Ümummilli Lider dünyaşöhrətli dövlət xadimi kimi Azərbaycanda baş vermiş ictimai-siyasi, mədəni prosesləri qiymətləndirmişdir. Ulu Öndər 1993-cü il 21 sentyabrda Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşündə açıqlamışdır ki, "Bizim tariximiz - həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin tarixi istənilən səviyyədə yazılmayıb". Həmin görüşdə Heydər Əliyev Azərbaycan tarixinin obyektiv şəkildə öyrənilməsi ilə bağlı tarixçilər qarşısında konkret vəzifələr qoyaraq vurğulayırdı: "Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Biz mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, azərbaycanlılıq hissini yüksəldərik. Müstəqillik dövründə torpaqlarımızı müdafiə etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bu, çox gərəklidir, lazımdır".

Daha sonra Heydər Əliyev ölkə Prezidenti olaraq 1997-ci il yanvarın 31-də AMEA alimləri ilə görüşündə XIX-XX əsrlər Azərbaycan tarixinin yenidən yazılması zərurətini irəli sürmüşdür. "Belə hesab edirəm ki, indi Akademiyanın qarşısında duran vəzifələrdən biri, Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır", - deyərək sovet dövründə yazılmış əsərlərin xalqımızı qane etmədiyini vurğulamış, bununla da həmin dövrün tarixinin yenidən araşdırılmasını tarixçilərimiz qarşısında bir vəzifə kimi qoymuşdur. Əlbəttə, tarixçilərimiz Ulu Öndərin bu tövsiyələrini elmi tədqiqatlarında rəhbər tutaraq bu məsul vəzifəni fəaliyyətlərində əsas istiqamət kimi qəbul etdilər.

Ulu Öndərin hələ Azərbaycan SSR-ə rəhbərliyi illərində Pedaqoji Universitetin məzunları olmuş gənclər artıq müstəqillik illərində tarixşünaslıq elminə dəyərli töhfələr vermişlər. Bunlardan İsmayıl Hacıyev - Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, AMEA Naxçıvan bölməsinin sədri, Oqtay Sultanov - professor, Camal Mustafayev - professor, Hacı Həsənov və başqa alimlərimizin adlarını çəkmək olar.

Azərbaycan tarixi kafedrasının professor-müəllim heyəti geniş elmi nailiyyətləri və əlaqələri, həmçinin respublikanın ictimai-siyasi həyatındakı fəallıqları ilə bu qocaman təhsil ocağının 105 illik tarixinə öz töhfəsini verir. Hazırda Azərbaycan tarixi kafedrası ümumuniversitet kafedrası kimi fəaliyyət göstərir və ixtisasından asılı olmayaraq bütün tələbələrə Vətən tarixini tədris edir. Kafedranın tədris etdiyi fənlər yüksəkixtisaslı mütəxəssislər tərəfindən Azərbaycan, rus və ingilis dillərində tədris olunur. Bununla yanaşı kafedra "Azərbaycanın diplomatiya tarixi və müasir beynəlxalq münasibətlər", "Azərbaycanın tarixi-siyasi coğrafiyası", "Azərbaycan tarixinin mənbəşünaslığı və tarixşünaslığı", "Azərbaycanda milli-azadlıq hərəkatı", "Azərbaycanın sivilizasiyalar və mədəniyyətlər tarixi" fənnlərinin tədrisini həyata keçirir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərovun rəhbərliyi ilə universitetdə mühüm islahatlar həyata keçirilir. Təhsil sisteminin daim yenilənməsi və sürətli dəyişikliklərə uyğunlaşması Pedaqoji Universitetdə prioritet məsələlərdən biridir. Xüsusilə müəllim hazırlığında innovativ yanaşmaların tətbiqi universitet rəhbərliyi tərəfindən qarşıya qoyulan əsas hədəflərdəndir. Çünki təhsilin keyfiyyəti birbaşa olaraq müəllimin peşəkarlığından asılıdır. Savadlı, vətənpərvər, dövrün çağırışlarına cavab verən, innovativ düşüncəyə malik müəllimlər yetişdirməklə universitet böyük bir missiyanı həyata keçirir.

Son illərdə universitetimizdə ali pedaqoji təhsilin məzmunu, idarəetmə və infrastrukturun yeniləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər, daha sağlam və şəffaf mühitin yaradılması, keyfiyyətin yaxşılaşdırılmasına yönəlmiş addımlar, qəbul imtahanlarında yüksək nəticə göstərən abituriyentlərin müəllimlik peşəsinə və ADPU-da təhsilə marağının artmasına ciddi stimul vermişdir. İldən-ilə universitetə və onun filiallarına yüksək balla daxil olan tələbələrin, MİQ imtahanlarında uğur qazanan məzunların sayı dinamik şəkildə çoxalır. İxtisasından asılı olmayaraq, yüksək vətənpərvərlik ruhu, xarici dil bilikləri və yüksək rəqəmsal bacarıqların bir arada birləşdirilməsi yetişən gənc nəslin əsas hədəfidir.

Məmnuniyyətlə qeyd etmək olar ki, Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələri də xeyli genişlənmişdir. ADPU Türk dövlətləri, Avropa və MDB ölkələrinin tanınmış universitetləri ilə əməkdaşlıq edir. Bu sahədə Pedaqoji Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Nağı qızı Hüseynovanın xidmətləri əvəzsizdir.

Pedaqoji Universitetdə müasir tələblərə cavab verən təhsil sisteminin formalaşması istiqamətində həyata keçirilən tədbirlərlə bərabər, tələbələrə azərbaycançılıq ideologiyasının elmi və konseptual şəkildə təbliğ olunması, milli-mənəvi dəyərlərin və vətənpərvərlik hisslərinin aşılanması istiqamətində davamlı işlər həyata keçirilir.

Zəfər Salnaməsi və gələcəyə baxış. Pedaqoji Universitet eyni zamanda tarixi yubileyini işğal altında olan torpaqlarımızın azad edildiyi, Dövlət Suverenliyinin tam bərpa edildiyi, azad olunmuş ərazilərdə bərpa quruculuq işlərinin həyata keçrildiyi bir dövrdə qeyd edir. Fəxrlə deyə bilərik ki, 44 günlük Vətən müharibəsinin ağır döyüşlərində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan ordusunu darmadağın edərək şanlı Zəfər salnaməsi yazan rəşadətli Silahlı Qüvvələrimizin sırasında Pedaqoji Universitetin tələbə və məzunlarıu da var idi. Bunlardan ön cəbhədə qəhrəmanlıqla döyüşən 18 nəfər isə şəhidlik zirvəsinə yüksəlmişdir. Hesab edirik ki, gənclərimizin vətənpərvər ruhda yetişməsində tarixçi alimlərimizin rolu böyükdür.

Beləliklə, qeyd etməliyik ki, tarix bu gün sıradan bir fənn olaraq tədris olunmur. Tarix bir dərsdir. Əsrlər boyu xalqımızın keçdiyi azadlıq mübarizələri, qəhrəmanlıq salnamələri, Müzəffər Ali Baş Komandanın yaratdığı "Dəmir yumruq" yetişən gənclərə bir ibrət dərsi olmalıdır.

Ali təhsil ocağının 105 illik yubileyini yüksək əhvali-ruhiyyə ilə qeyd edərək inanırıq ki, bundan sonra da Pedaqoji Universitet müəllim hazırlığı və layiqli vətəndaş yetişdirmək sahəsində özünün peşəkar mövqeyini qoruyacaq və möhkəmləndirəcəkdir.



**Naibə ƏHMƏDOVA,**
**ADPU-nun Azərbaycan tarixi kafedrasının müdiri, dosent**



**Üçüncü cəhddə “Maarifçi” olub, tələbə-məzun proqramında 52 iştirakçıdan birinə çevrilib. Hazırda “Maarifçi” proqramının Quba-Xaçmaz Regional Təhsil İdarəsi üzrə iştirakçısı Şirinxanım Şeydayeva Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunudur. Burada “Kimya-biologiya müəllimliyi” ixtisası üzrə bakalavr təhsili aldıqdan sonra “Təlim və Tədrisin metodikası” ixtisası üzrə magistraturada davam edirib. IV “Maarifçi”yə tam ali təhsilli pedaqoq kimi müraciət edib və imtahan mərhələsini uğurla keçib: “60 sualdan hamısına cavab verdim. May ayında müsahibə mərhələsinə dəvət olundum. İxtisaslarımla bağlı suallar verildilər və hər suala həvəslə cavab verdim. Mayın sonunda proqrama qəbul olunduğumu bildirdilər. Bu, indiyədək qazandığım uğurlarımın zirvəsi oldu”.**

# ""Maarifçi" olmaq ən böyük hədəflərimdən biri idi"

## *Şirinxanım Şeydayevanın uğur hekayəsi*



Bu zirvəyə o əziyyətsiz yüksəlməyib. Təbii ki, zirvəyə gedən yollar elə asan olmur: “İlk müraciətimdə imtahan mərhələsində, ikinci cəhdimdə müsahibədən kəsildim. Hər dəfə uğursuzluq qazandıqca həvəsdən düşmədim. Proqram iştirakçılarını, onların uğurlarını izlədim. “İştirakçı olanların hansı keyfiyyətləri var ki, seçilirlər”, - deyə müşahidə apardım. Bu istiqamətdə öz üzərimdə çalışdım. “Maarifçi” olmaq mənim üçün böyük hədəflərdən biri idi və bu məqsədimə çatdım”.

Şirinxanım bunu təhsil sahəsinə olan marağı ilə izah edir: “Təhsilimi də bu istiqamətdə almağımdan göründüyü kimi, bu sahəyə əvvəlcədən böyük marağım var idi. Proqram məni özünə çəkirdi. Yoxsa bu qədər cəhdlər göstərməzdim bəlkə də”.

**“Təhsil dünyasının hər rəngini tanımağa başlayıram”**

Şirinxanım ““Maarifçi” nəinki bu marağıma tamamilə uyğundur, hətta daha da inkişaf etdirir və bu gün daha çox əminəm ki, doğru yoldayam. Təhsilin içərisinə daxil olub burada işin əsas mahiyyətini öyrənir, rəngarəng təhsil dünyasının hər rəngini tanımağa başlayıram”, - deyir.

**Öz rayonunun təhsilinin inkişafına töhfə vermək arzusundadır**

Görəsən, təhsilin hansı “rəngi” onun üçün daha cəlbedici olub, yəni hansı strukturun işi ona maraqlı gəlir? Cavabından belə görünür ki, Şirinxanım bir çox gənclər kimi mərkəzə qaçmaq həvəsində deyil, öz rayonunun təhsilinin inkişafına töhfə vermək arzusundadır: “Müracət edərkən “Maarifçi” olaraq öz rayonumun Təhsil sektorunda təcrübə qazanmaq məqsədim vardı. Amma Regional Təhsil İdarəsində çalışacağım bildirildi. Məqsədimdən çox uzaqlaşmamışam. Burada da mənə maraqlı olan işi öyrənə bilirəm.

> **“İlk müraciətimdə imtahan mərhələsində, ikinci cəhdimdə müsahibədən kəsildim. Hər dəfə uğursuzluq qazandıqca həvəsdən düşmədim. Proqram iştirakçılarını, onların uğurlarını izlədim. “İştirakçı olanların hansı keyfiyyətləri var ki, seçilirlər”, - deyə müşahidə apardım. Bu istiqamətdə öz üzərimdə çalışdım. “Maarifçi” olmaq mənim üçün böyük hədəflərdən biri idi və bu məqsədimə çatdım”**

Mənim üçün maraqlı olan iş mexanizmidir. Pillə-pillə qalxmaq, bu sahəni ən aşağıdan öyrənmək istəyirəm. Necə ki, təcrübəçiliyin “Maarifçi” zirvəsinə mərhələ-mərhələ, 3 cəhddən sonra yüksəldim, təhsilin də zirvəsinə ən aşağıdan başlayaraq qalxmağı hədəfləyirəm. Bu sahənin hər pilləsi, hər səviyyəsi barədə məlumatlı olmaq istəyirəm. Hesab edirəm ki, belə olsa, işimin effektivliyi, keyfiyyəti daha yüksək olar”.

**“Parta arxasından baxdığım bu dünyanı partanın önündən də görmək istəyirəm”**

“Ən aşağıdan” demişkən, təhsil sistemi müəllimliyin üzərində dayanıb, elə isə müəllimlikdən başlamaq gərəkməzdimi?

O, bunun üçün də lazım olan addımı atıb: “Müəllimlərin işə qəbulu müsabiqəsinə qatılmışam. Bu il “Biologiya” fənni üzrə imtahanda iştirak edərək 71.25 bal topladım. Rayonumuzda vakant yerlərdən birini tutacağıma inanıram”.

Məktəbin onun üçün nə ifadə etdiyinə gəlincə, “Bir neçə il məktəbdə olmaq istəyirəm. Parta arxasından baxdığım bu dünyanı partanın önündən də görmək istəyirəm. Amma sonra özümü inkişaf etdirib müəllimlərin təhsildə bələdçisi olacağam. Düşünürəm ki, 25 şagirdə bələdçi olaraq əldə etdiyim nəticə 25 müəllimlə işləmək nəticəsində ortaya çıxacaq effektivliklə eyni deyil”, - deyir.

**Yaxşı təhsil almağı üçün ailəsi yaşayış yerini dəyişib**

Şirinxanım danışdıqca onun kimi cəsur, inadkar, məqsədyönlü bir qızın yetişdiyi şərait - ailəsinin təhsilə münasibəti, məktəbinin onun üçün yaratdığı təhsil mühitini öyrənmək marağı güc gəlməyə başlayır. Regionda yetişən bu ağıllı qızı necə ailə böyüdüb, hansı məktəb yetişdirib?

Şirinxanım ata-anasının gözünün ağı-qarası yeganə övladıdır. Hər ikisi təhsilli olan ata-ana övladının da təhsil alması üçün əlindən gələni edib: “Atam inşaat sektorunda çalışıb, anam isə qida sektorunda. Təhsil almağımda anam xüsusilə təkid edir, dərslərimə nəzarəti əldən buraxmırdı. Hətta mənim yaxşı təhsil almağım üçün ailəm yaşayış yerini dəyişib. Əvvəlcə Şabran rayonunun Pirəbədi kənd məktəbində təhsil almışam. Ümumi orta təhsilimi burada tamamladıqdan sonra universitetə daha yaxşı hazırlaşmağım üçün ailəm məni Tofiq Abbasov adına 1 nömrəli Şabran şəhər tam orta məktəbinə yerləşdirib. Məktəbimi dəyişdiyim üçün qəbul imtahanları nəticələrinə elə də ümidli deyildilər. Ancaq mən 560 bal toplayaraq siyahıda ilk yerdə yazdığım “Kimya-biologiya müəllimliyi” ixtisasına qəbul olundum. Seçim tamamilə özümün idi. Bu seçimim mənə universitetdə üstünlük də qazandırdı. Müəllimliyi ilk sırada seçərək yüksək balla universitetə qəbul olan tələbələrin aldığı “Gləcəyin müəllimi” təqaüdü alırdım”.

Seçimlərində qərarlı olmasında atasının rolunu xüsusi qeyd edir: “Atam heç vaxt seçimlərimə qarışmayıb, “Necə istəyirsən et, arxandayam”, - deyib, qərar verməkdə özünəinam formalaşdırıb məndə. Səssizcə dəstək verib”.

**“Növbəti hədəfim “Yüksəliş” proqramıdır”**

Elə bu inamın nəticəsidir ki, o, uğurdan uğura gedir. Özünüinkişafla bağlı bütün layihələr, proqramlar diqqətini cəlb edir, qoşulmaq üçün, lazım gələrsə, dəfələrlə cəhdlər göstərir, hər fürsəti dəyərləndirir: “İştirakçısı olmaq istədiyim bir proqram da var. Növbəti hədəflərimdən biri də “Yüksəliş” proqramıdır. Təhsil aldığım dövrdə universitetimizin keçirdiyi “Gələcəyin təhsil liderləri” müsabiqəsində də iştirak edərək finala qədər yüksəlmişdim. Amma təəssüf ki, onun finalına qatıla bilmədim. “Yüksəliş” də uğur qazana biləcəyimi düşünürəm”.

**Ruhiyyə DAŞSALAHLI**

# ADNSU komandası beynəlxalq innovasiya festivalında medal qazanıb




**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) komandası Amerika Birləşmiş Ştatlarında (ABŞ) keçirilən “Silicon Valley International Invention Festival — SVIIF 2026” beynəlxalq innovasiya festivalında uğurla çıxış edərək gümüş medal qazanıb.**

Bu barədə "Azərbaycan müəllimi"nə ADNSU-dan məlumat verilib.

Bildirilib ki, ölkəmiz festivalda 8 innovativ layihə ilə təmsil olunub. Təqdim olunan bütün layihələr mükafata layiq görülüb. Milli komanda 3 qızıl, 3 gümüş və 2 bürünc medal, həmçinin “Semi-Grand Prix” xüsusi mükafatını qazanıb.

Azərbaycan nümayəndə heyətinin tərkibində ADNSU-nu SABAH mərkəzinin rəhbəri Arzu İbrahimova, SABAH qruplarının “Süni intellekt” ixtisaslaşması üzrə magistr tələbələri Cahid Cabizadə və Cavid Cəlilov təmsil ediblər.

ADNSU komandası festivalda “ECHRON” innovativ layihəsini təqdim edib. Layihə beynəlxalq münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilərək SVIIF 2026-nın gümüş medalına layiq görülüb.

Qeyd edək ki, 14—16 avqust tarixlərində ABŞ-nin Kaliforniya ştatında keçirilən festival dünyanın müxtəlif ölkələrindən ixtiraçıları, alimləri, tələbələri, universitet nümayəndələrini və innovasiya sahəsində fəaliyyət göstərən mütəxəssisləri bir araya gətirib. Bu il SVIIF-də 30-dan çox ölkədən 500-dən artıq ixtiraçı iştirak edib.

# Gənclər "Yay Fest"də "Elm, Etika və Gələcək" düşərgəsində bir araya gəliblər




**Bu il süni intellekt və rəqəmsallaşmaya həsr olunan Yay Fest 2026 çərçivəsində sayca beşinci “Elm, Etika və Gələcək” düşərgəsində gənclər bir araya gəliblər.**

Düşərgənin əsas məqsədi gənclərin süni intellekt və innovativ texnologiyalar barədə məlumatlılığını artırmaq, onların imkanlarından səmərəli və məsuliyyətli istifadə ilə bağlı maarifləndirmək, gələcəyin əmək bazarının tələblərinə uyğun bacarıqlar formalaşdırmaq və innovativ düşüncə tərzini təşviq etmək olub. Düşərgə çərçivəsində gənclər süni intellektin təhsil, karyera, yaradıcılıq və gündəlik həyatdakı tətbiq imkanları ilə tanış olmaqla yanaşı, texnoloji inkişafın yaratdığı yeni çağırışlar, rəqəmsal etika və gələcəyin peşələri barədə fikir mübadiləsi aparıb, bu istiqamətlər üzrə müxtəlif fəaliyyətlərdə iştirak ediblər.

Düşərgənin 5 günlük proqramı müddətində peşəkarların iştirakı ilə keçirilən “Yüksəliş masası”, “Xarici universitetlərə müsahibə zamanı nələr etməli?”, “Xaricdə təhsil: Gözləntilər və reallıq” və “Qlobal imkanlardan uğurlu karyeraya: Təhsil, təcrübə və inkişaf” adlı panel görüş və praktiki sessiyalarda gənclər süni intellekt və innovasiyanın təhsil və karyeraya təsiri, gələcəyin əmək bazarının tələbləri, beynəlxalq təhsil imkanları, xarici universitetlərə qəbul və müsahibə prosesinə hazırlıq, qlobal imkanlardan səmərəli istifadə, şəxsi və peşəkar inkişaf barədə dünyagörüşlərini artırıb və faydalı tövsiyələr əldə ediblər. Həmçinin, gənclər “Ali təhsildə yeni trendlər: Süni intellekt, innovasiya və karyera” mövzusunda Azərbaycan Respublikası Milli Məclisinin deputatı Fariz İsmayılzadə və “Azərbaycanın qədim dövlətçilik ənənələri” mövzusunda isə Azərbaycan Respublikasının siyasi və dövlət xadimi, diplomat, alim və tarix elmləri doktoru Həsən Həsənov ilə görüşüblər.

Maarifləndirici fəaliyyətlərlə yanaşı, yoqa, zumba məşqi, master-klasslar, vörkşoplar, intellektual oyun, idman yarışları, hayking və Şamaxı Astrofizika Rəsədxanasına ekskursiya gənclərin həm öyrədici, həm də əyləncəli zaman keçirməsinə şərait yaradıb. Axşam saatlarında təşkil edilən musiqili fəaliyyətlər, gənclərin sevimli müğənnilərinin ifaları, DJ performansları və tonqal ətrafındakı səmimi söhbətlər düşərgənin dostluq və komanda ruhunu daha da möhkəmləndirib.

Qeyd edək ki, “Yay Fest 2026” Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, IDEA İctimai Birliyinin tərəfdaşlığı, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, Azərbaycanlı Tələbələr və Məzunlar Platforması, “CAVAN” Gənclər Hərəkatı İctimai Birliyi, “Böyük Qayıdış” Gənclər Təşkilatı və “Gənc Könüllülər” İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilir.

Sentyabrın 4-dək davam edəcək festival çərçivəsində “Rəqəmsal Dövlət”, “Media və Rəqəmsal Savadlılıq”, “Kreativ AI”, “Müasir Şəhərlər və Texnologiya”, “Elm, Etika və Gələcək”, “Mühəndislik və Kod”, “Startap və Sahibkarlıq” və “AI — İdman və Sağlamlıq” adlı ardıcıl 8 düşərgə təşkil ediləcək. Hər biri 5 gün davam edən düşərgələrdə ümumilikdə 2 mindən çox gənc iştirak edəcək.

